**Vəfa Xanlar qızı Həşimova**
**AMEA İqtisadiyyat İnstitutu, dissertant**
**E-mail:vefa.hashimli@yandex.ru**
**UOT:314.330.12; JEL: I30; J19.**

# Pensiya sistemlərinin liberallıq səviyyəsinin ölçülməsinin ölkələrarası müqayisəli təhlili

***Xülasə***

*Tədqiqatın əsas məqsədi pensiya sisteminin liberallıq və dirijistlik səviyyəsinin ölçülməsinin ölkələrarası müqayisəli təhlilinin aparılmasıdır. Bu məqsədlə 36 İƏİT ölkəsi və Azərbaycan daxil olmaqla, 2011-2020-ci illər ərzində PSL(D) sub-indeksinin dinamikası təhlil edilmişdir. Tədqiqatın metodologiyası – PSL(D) sub-indeksinin qiymətləndirmə və digər müqayisəli analiz metodşlarından istifadə olunmuşdur. Tədqiqatın tətbiqi əhəmiyyəti - əldə olunmuş nəticələr təkcə Azərbaycan üçün deyil, həm də İƏİT ölkələri üçün mühüm əhəmiyyət daşıyır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – aparılan ölçmələr əsasında müəyyən edilən dinamika əsasən orginaldır. Tədqiqatın nəticələri – aparılan araşdırma nəticəsində müəyyən olunmuşdur ki, dövlətin pensiya xərclərinin azaldılması, özəl pensiya fondlarının investisiyalaşmasına tətbiq olunan məhdudiyyətlərin aradan qaldırılması, işəgötürənlər üçün sosial sığorta tariflərinin azaldılması pensiya sisteminin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.*

***Açar sözlər:*** *pensiya sistemi, librealllıq, dirijistlik, dövlət pensiya xərcləri, özəl pensiya fondları, işəgötürən, ÜDM*

## Giriş

Pensiya sistemlərinin müqayisə edilməsi, hər bir sistemin ölkənin xüsusi iqtisadi, sosial, mədəni, siyasi və tarixi şəraitlərindən asılı olaraq inkişaf etdiyi üçün mübahisəli ola bilər. Bu o deməkdir ki, bir ölkənin pensiya sistemi dəyişdirilmədən digər ölkəyə tətbiq edilə bilməz. Pensiya sisteminin müxtəlif təsnifatlar əsasında öyrənilərək kəmiyyətcə qiymətləndirilməsi pensiya təminatının optimallaşdırılması üçün icbari şərtdir. Buna görə pensiya sisteminin liberallıq səviyyəsinin, yəni dövlətin bu sistemə müdaxilə dərəcəsinin ölçülməsi olduqca vacibdir [2]. Pensiya sisteminə dövlət müdaxiləsinin səviyyəsinin qiymətləndirilməsi üçün Pensiya Sisteminin Liberallığı (Dirijistliyi) sub-indeksindən (PSL(D)) istifadə olunur. PSL(D) sub-indeksi AMEA İqtisadiyyat İnstitutunun hesabladığı İqtisadiyyatın Solluğu (Sağlığı) İndeksinin metodologiyasına uyğun olaraq hesablanan Sosial Təminat Sisteminin Liberallığı (Dirijistliyi) İndeksinə daxil olan üç sub-indeksdən biridir [1]. İS(S) üzrə tədqiqatların əsas məqsədlərindən biri dünya ölkələrində dövlətin iqtisadiyyata modelyaradıcı müdaxilə formalarının səviyyəsini ölçmək və bu ölçmələr əsasında iqtisadi modelləri təsnifləşdirməkdir [2]. PSL(D) sub-indeksi əsasında ölkədə pensiya sisteminin liberallıq və ya dirijistlik səviyyəsi qiymətləndirilir. Bu sub-indeks 4 alt-indeks əsasında hesablanır [1]: Özəl pensiya fondlarının aktivlərinin ÜDM-ə nisbəti; Dövlət pensiya xərclərinin ÜDM-ə nisbəti; İşəgötürənlər üçün icbari sosial sığorta tarifi; Özəl pensiya fondlarının bəzilərinin investisiyalaşmasına qoyulan məhdudiyyətlər. Sub-indeksin hesablanması zamanı hər bir alt-indeksin göstəriciləri $(V_i - V_{min}) / (V_{max} - V_{min})$ düsturu vasitəsilə 0-1 aralığına gətirilir və qiymətləndirilir (cədvəl 1).

**Cədvəl 1.**

**PSL(D) sub-indeksi (2020)**

| Ölkələr | PSL(D) Sub-indeksi | | Ölkələr | PSL(D) Sub-indeksi |
|---|---|---|---|---|
| Danimarka | 0,114 | | Latviya | 0,505 |

| | | | | |
|---|---|---|---|---|
| Niderland | 0,196 | | Sloveniya | 0,509 |
| İslandiya | 0,212 | | Macarıstan | 0,514 |
| Kanada | 0,216 | | Türkiyə | 0,525 |
| Avstraliya | 0,216 | | Finlandiya | 0,539 |
| ABŞ | 0,238 | | Belçika | 0,551 |
| İsveçrə | 0,267 | | Portuqaliya | 0,579 |
| Yeni Zelandiya | 0,278 | | Polşa | 0,587 |
| İsrail | 0,283 | | Avstriya | 0,590 |
| Birləşmiş Krallıq | 0,284 | | Estoniya | 0,597 |
| İrlandiya | 0,345 | | Meksika | 0,606 |
| Litva | 0,382 | | İspaniya | 0,614 |
| Koreya | 0,397 | | Fransa | 0,645 |
| Norveç | 0,423 | | Slovakiya | 0,650 |
| Yaponiya | 0,450 | | Çexiya | 0,653 |
| Çili | 0,452 | | Yunanıstan | 0,659 |
| Lüksemburq | 0,455 | | İtaliya | 0,677 |
| İsveç | 0,481 | | **Azərbaycan** | **0,743** |
| Almaniya | 0,499 | | | |

Mənbə: Cədvəl [4] məlumatları əsasında əsasında müəllif tərəfindən hesablanıb.

Sıralanan ölkələr arasında PSL(D) sub-indeksinə görə 2020-ci il üçün ən liberal göstərici Danimarka (0,114), ən dirijist göstəriciyə isə Azərbaycan (0,743) sahibdir. Azərbaycan pensiya sisteminin liberallığına görə ən sonuncu yeri tutur.

**Qrafik 1.**

**PSL(D) sub-indeksinin interval şkalası (2020)**




Mənbə: Qrafik [4] məlumatları əsasında əsasında müəllif tərəfindən hesablanıb.

İnterval şkalası həmin ölkələrin pensiya sistemlərinin liberallıq və dirijistlik dərəcəsini ifadə etməyə imkan verir. Ölkəmiz nisbi mərkəzdən çox solda yerləşmişdir. Şkalanın nisbi mərkəz nöqtəsi 0,458-dir. Şkalanın median nöqtəsi, yəni, 0,499 – Almaniya nisbi mərkəzdən soldadır. Tədqiqat aparılan ölkələrin çoxunda pensiya sistemi nisbi mərkəz nöqtəsinin göstərdiyindən daha dirijistdir. Bu o deməkdir ki, nisbi mərkəz nöqtəsindən solda qalan ölkələr pensiya sisteminin liberallaşdırılması sahəsində islahatlar həyata keçirtməlidirlər.

**PSL(D) sub-indeksi üzrə dinamikanın müəyyən edilməsi**

PSL(D) sub-indeksi üzrə ölkələrin dinamikasını müəyyən etmək üçün 2011-2020-ci illər ərzində baş verən dəyişiklikləri təhlil edək. Təhlil üçün 36 İƏİT ölkəsi və Azərbaycan götürülmüşdür. Çünki dinamikanın təhlili üçün lazım olan 10 illik göstəricilərə əlçatanlıq yalnız İƏİT hesabatlarından əldə etmək mümkün idi. Sub-indeksə daxil olan ilk alt-indeks özəl pensiya fondlarının aktivlərinin ÜDM-ə nisbətidir. Alt-indeksin hesablanması zamanı $V_{max}$=250 və $V_{min}$=0 götürülüb [1]. Özəl pensiya fondlarının aktivlərinin ÜDM-ə nisbətini üstələdiyi liberal ölkələr qrupuna 2020-ci ildə Danimarka (238,90%), Niderland (210,30%),

İslandiya (205,60%), Kanada (174,10%), ABŞ (164,80%), İsveçrə (149,10%), Avstraliya (131,80%), Birləşmiş Krallıq (118,50%) daxildir. Bu o deməkdir ki, bu ölkələrdə özəl pensiya fondlarının aktivləri ölkənin iqtisadiyyatında mühüm rola malikdirlər. Sıralamaya daxil olan İƏİT ölkələri arasında özəl pensiya fondlarının aktivlərinin ÜDM-ə nisbəti 2011-2020-ci illər arasında ən yüksək artım 84,85 faiz bəndi ilə Niderlandda müşahidə olunmuşdur. Daha sonra İslandiyada 75,90 faiz bəndi, Danimarkada 58 faiz bəndi, Kanadada 50,40 faiz bəndi, İsveçrədə 48,45 faiz bəndi, ABŞ-da 48,28 faiz bəndi, Avstraliyada 37,29 faiz bəndi, İsveçdə 34,38 faiz bəndi artım olmuşdur. Alt-indeks üzrə ən dirijist ölkələr qrupuna Azərbaycan (1,000), Yunanıstan (0,996), Lüksemburq (0,988), Türkiyə (0,986), Macarıstan (0,978) və Avstriya (0,974) daxildir. Azərbaycanda qeyri-dövlət pensiya fondları mövcud olmaması bu alt-indeksin 1 qiyməti almasına səbəb olur. Aparılan tədqiqat əsasında 2011-2020-ci illərdə təkcə artım deyil, həm də azalma da müşahidə olunmuşdur. İƏİT ölklərindən üç ölkədə, Polşada, Koreyada, İrlandiyada bir qədər dirijistlik səviyyəsinin artımı nəzərə çarpmışdır.

**Qrafik 2.**

**Özəl pensiya fondlarının aktivlərinin ÜDM-ə nisbətinin dinamikası (2011-2020-ci illər)**




Mənbə: Qrafik [4] məlumatları əsasında müəllif tərəfindən hesablanıb və tərtib olunub.

İkinci alt-indeks "Dövlət pensiya xərclərinin ÜDM-ə nisbəti"dir [1]. Alt-indeksin hesablanması üçün lazım olan ən son göstəricilər 2019-cu ilə aiddir. Ona görə də dinamikanın təhlili üçün 2010-2019-cu illər götürülmüşdür. Alt-indeksin göstəriciləri $V_{max}=20$ və $V_{min}=0$ olmaqla, 0-1 aralığına gətirilmişdir. Dövlət pensiya xərclərinin ÜDM-ə nisbətinə görə ən yüksək göstəriciyə 2019-ci ildə Yunanıstan (16,4%), İtaliya (15,9%), Fransa (13,7%), Portuqaliya (13,3%) və Avstriya (13,2%) malikdir. 2010-2019-cu illər ərzində Finlandiyada 2,5 faiz bəndi, Yunanıstanda və İspaniyada 2,2 faiz bəndi, Norveçdə 2 faiz bəndi ən yüksək artım müşahidə olunmuşdur. Həmin dövrdə dövlət pensiya xərclərinin ÜDM-ə nisbəti ən çox Latviyada 9,9%-dən 6,9%-ə enmişdir. Bu isə Latviyada dövlətin pensiya sistemini liberallaşdırılması ilə bağlıdır. Lakin diaqrama əsasən görmək olar ki, əksər ölkələrin dövlət pensiya xərclərində artım müşahidə olunmuşdur. Bu isə dövlətlərin sosial yükünün artması deməkdir. PSL(D)İ sub-indeksinin hesablanması zamanı "İşəgötürənlər üçün icbari sosial sığorta tarifləri" adlı üçüncü alt-indeksdən istifadə olunur. Göstəricilərə müvafiq olaraq $V_{max}=30$ və $V_{min}=0$ götürülmüşdür [1]. Bu alt-indeks əsasında nəinki pensiya sisteminin liberal və ya dirijist olduğunu, hətta biznes mühitinin əlverişli olub-olmamasını müəyyən etmək mümkündür.

**Qrafik 3.**

**"Dövlət pensiya xərclərinin ÜDM-ə nisbəti" alt-indeksinin dəyişmə dinamikası (2010-2019-cu illər)**




Mənbə: Qrafik [3] məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır.

2011-2020-ci illər ərzində ən mühüm islahatlar Litvada işəgötürənlərin xeyrinə keçirilmişdir. Litvada 2019-cu ildə həyata keçirilmiş islahatlar nəticəsində işəgötürənlərin ödədiyi icbari sığorta haqqı 1,79%-ə endirilmişdir. Bu isə Litvanı OECD ölkələri içərisində bu alt-indeks üzrə 10 il ərzində əhəmiyyətli dərəcədə liberallaşdırmışdır. 2019-cu ildə işəgötürənlərin sosial sığorta haqlarının əhəmiyyətli dərəcədə azaldılmasını nəzərdə tutan əmək vergisi islahatı tətbiq edilib. Bu azalmanın böyük hissəsi işçilərin sosial sığorta haqlarının artırılması və müvafiq olaraq ümumi əmək haqqının artması ilə əvəz olundu. İşəgötürənlər üçün icbari sosial sığorta haqqı 2018-ci ildə 23,8%-dən azalaraq 2019-cu ildə 1,79%-ə, işçilərin icbari sosial sığorta haqqı dərəcəsi isə 9%-dən 19,5%-ə yüksəlib. Bundan əlavə, işçi və işəgötürən sosial sığorta haqları üzrə orta aylıq əmək haqqının təxminən 9,5 misli həcmində gəlir həddi tətbiq edilmişdir. İşçilərin sosial sığorta haqlarının artımını kompensasiya etmək üçün islahat əsasında işəgötürənlərdən ümumi əmək haqqını 28,9% artırmağı tələb edilib [5].

**Qrafik 4.**

**İşəgötürənlər üçün icbari sosial sığorta tarifləri alt-indeksinin dinamikası (2011-2020-ci illər)**




Mənbə: Qrafik [5] məlumatları əsasında müəllif tərəfindən hesablanıb və tərtib olunub.

PSL(D)İ-nin hesablanması zamanı sonuncu alt-indeks "Özəl pensiya fondlarının bəzilərinin investisiyalaşmasına qoyulan məhdudiyyətlər"dir [1]. Alt-indeksin göstəriciləri İƏİT tərəfindən "Pensiya Fondlarının İnvestisiya Tənzimlərinin İllik Sorğu"su əsasında müəyyən edilib. Göstəricilər 10 və 0 bal aralığında qiymətləndirilib. Müvafiq olaraq göstəricilərin hesablanması üçün $V_{max}$=10 və $V_{min}$=0 götürülmüşdür. Əksər ölkələrdə pensiya fondlarının investisiyalarında kəmiyyət məhdudiyyətləri mövcuddur. Limitlər adətən fondun növlərinə görə dəyişə bilir. Məsələn, Çili, Kolumbiya və Peruda fərdlər müxtəlif risk səviyyələri olan müxtəlif növ fondlara qoşula bilərlər [6]. OECD ölkələrindən yalnız bəzi ölkələrdə pensiya fondu investisiyalarına heç bir hədd tətbiq edilmir: ABŞ, Almaniya, Avstraliya, Belçika, Birləşmiş Krallıq, İrlandiya, İsrail, Kanada, Lüksemburq, Niderland, Norveç, Yeni Zelandiya və Yaponiya aiddir. Lakin qeyri-dövlət pensiya fondlarının inkişaf tarixinə görə fərqlənən Çilidə özəl pensiya fondlarının investisiyalaşmasına çox sərt məhdudiyyətlər qoyulmuşdur. Danimarka isə 2019-cu ildən etibarən bütün məhdudiyyətləri aradan qaldırmışdır. 2011-2020-ci illər ərzində Türkiyə, Slovakiya, Polşa, Meksika, Litva, Koreya, İslandiya isə özəl pensiya fondlarının investisiyalaşmasına olan məhdudiyyətləri bir qədər artırmışdırlar. Xüsusilə Meksikada daha sərt qərarlar qəbul edilib. Meksika əvvəllər çoxfondlu struktura malik idi, lakin 2019-cu ilin dekabr ayından etibarən yalnız 10 fond yaradılaraq, məhdudiyyətlər tətbiq edilib. Birinci pensiya fondu Əsas ilkin fonddur. Burada 24 və daha az yaşlı plan üzvlərinin aktivləri idarə olunur. İkincisi, baza pensiya fondu adlandırılır. Bura isə 65 və daha çox yaşlı plan üzvlərinin aktivlərinin idarə olunması daxildir. Növbəti 8 fond isə 25 yaşdan etibarən başlayan 5 illik yaş həddi olan plan üzvlərinin aktivlərinin idarə edilməsi aid edilir [6].

**Qrafik 5.**

**“Özəl pensiya fondlarının bəzilərinin investisiyalaşmasına qoyulan məhdudiyyətlər” alt-indeksinin dinamikası (2011-2020-ci illər)**




Mənbə: Qrafik [5] məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Qeyd etmək lazımdır ki, Azərbaycanda qeyri-dövlət pensiya fondları mövcud deyildir. Lakin investisiya fəaliyyəti “İnsvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir [7]. Alt-indeksin göstəricisinin hesablanması zamanı ona 10 bal verilmişdir. Aşağıdakı cədvəldə PSL(D) sub-indeksinin yekun qiymətləndirilməsi verilmişdir (Cədvəl 2).

**Cədvəl 2.**

**PSL(D) sub-indeksi**

| Ölkələr | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **ABŞ** | 0,289 | 0,285 | 0,273 | 0,274 | 0,273 | 0,267 | 0,258 | 0,267 | 0,254 | 0,238 |
| **Almaniya** | 0,515 | 0,508 | 0,506 | 0,505 | 0,504 | 0,504 | 0,506 | 0,506 | 0,507 | 0,499 |
| **Avstraliya** | 0,249 | 0,252 | 0,242 | 0,236 | 0,228 | 0,227 | 0,213 | 0,206 | 0,213 | 0,216 |
| **Avstriya** | 0,626 | 0,622 | 0,631 | 0,635 | 0,660 | 0,658 | 0,656 | 0,646 | 0,657 | 0,590 |
| **Azərbaycan** | 0,732 | 0,732 | 0,736 | 0,737 | 0,742 | 0,751 | 0,748 | 0,741 | 0,737 | 0,743 |
| **Belçika** | 0,561 | 0,564 | 0,561 | 0,565 | 0,565 | 0,563 | 0,552 | 0,548 | 0,551 | 0,551 |
| **Birləşmiş Krallıq** | 0,323 | 0,316 | 0,316 | 0,314 | 0,312 | 0,301 | 0,295 | 0,297 | 0,280 | 0,284 |
| **Çexiya** | 0,658 | 0,660 | 0,665 | 0,665 | 0,661 | 0,658 | 0,655 | 0,652 | 0,653 | 0,653 |
| **Çili** | 0,421 | 0,396 | 0,477 | 0,470 | 0,468 | 0,468 | 0,463 | 0,453 | 0,442 | 0,452 |
| **Danimarka** | 0,214 | 0,209 | 0,216 | 0,201 | 0,194 | 0,190 | 0,187 | 0,189 | 0,131 | 0,114 |
| **Estoniya** | 0,601 | 0,589 | 0,583 | 0,581 | 0,599 | 0,604 | 0,597 | 0,594 | 0,596 | 0,597 |
| **Finlandiya** | 0,541 | 0,537 | 0,542 | 0,551 | 0,555 | 0,552 | 0,562 | 0,547 | 0,554 | 0,539 |
| **Fransa** | 0,728 | 0,732 | 0,724 | 0,720 | 0,719 | 0,711 | 0,641 | 0,643 | 0,644 | 0,645 |
| **İrlandiya** | 0,349 | 0,351 | 0,343 | 0,334 | 0,345 | 0,338 | 0,344 | 0,344 | 0,343 | 0,345 |
| **İslandiya** | 0,255 | 0,233 | 0,225 | 0,222 | 0,224 | 0,276 | 0,249 | 0,259 | 0,240 | 0,212 |
| **İspaniya** | 0,585 | 0,591 | 0,598 | 0,606 | 0,612 | 0,610 | 0,611 | 0,610 | 0,613 | 0,614 |
| **İsrail** | 0,301 | 0,297 | 0,301 | 0,295 | 0,298 | 0,298 | 0,295 | 0,296 | 0,289 | 0,283 |
| **İsveç** | 0,518 | 0,509 | 0,523 | 0,525 | 0,515 | 0,496 | 0,486 | 0,489 | 0,495 | 0,481 |
| **İsveçrə** | 0,309 | 0,304 | 0,286 | 0,300 | 0,276 | 0,273 | 0,265 | 0,273 | 0,273 | 0,267 |
| **İtaliya** | 0,677 | 0,677 | 0,681 | 0,686 | 0,686 | 0,685 | 0,678 | 0,675 | 0,677 | 0,677 |
| **Kanada** | 0,267 | 0,265 | 0,261 | 0,254 | 0,242 | 0,241 | 0,238 | 0,238 | 0,231 | 0,216 |
| **Koreya** | 0,352 | 0,370 | 0,359 | 0,369 | 0,372 | 0,374 | 0,374 | 0,374 | 0,395 | 0,397 |
| **Latviya** | 0,561 | 0,544 | 0,541 | 0,538 | 0,553 | 0,503 | 0,513 | 0,514 | 0,509 | 0,505 |
| **Litva** | 0,545 | 0,535 | 0,562 | 0,556 | 0,552 | 0,546 | 0,537 | 0,546 | 0,352 | 0,382 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Lüksemburq** | 0,440 | 0,433 | 0,445 | 0,445 | 0,442 | 0,442 | 0,440 | 0,456 | 0,454 | 0,455 |
| **Macarıstan** | 0,609 | 0,610 | 0,600 | 0,598 | 0,590 | 0,583 | 0,553 | 0,535 | 0,525 | 0,514 |
| **Meksika** | 0,382 | 0,373 | 0,373 | 0,409 | 0,414 | 0,413 | 0,440 | 0,446 | 0,412 | 0,606 |
| **Niderland** | 0,264 | 0,252 | 0,239 | 0,237 | 0,224 | 0,219 | 0,217 | 0,228 | 0,214 | 0,196 |
| **Norveç** | 0,428 | 0,430 | 0,413 | 0,413 | 0,413 | 0,418 | 0,423 | 0,422 | 0,423 | 0,423 |
| **Polşa** | 0,514 | 0,517 | 0,521 | 0,578 | 0,577 | 0,578 | 0,558 | 0,551 | 0,543 | 0,587 |
| **Portuqaliya** | 0,581 | 0,592 | 0,592 | 0,603 | 0,602 | 0,594 | 0,583 | 0,578 | 0,579 | 0,579 |
| **Slovakiya** | 0,586 | 0,593 | 0,618 | 0,621 | 0,650 | 0,649 | 0,651 | 0,645 | 0,645 | 0,650 |
| **Sloveniya** | 0,539 | 0,542 | 0,544 | 0,548 | 0,535 | 0,517 | 0,514 | 0,508 | 0,510 | 0,509 |
| **Türkiyə** | 0,487 | 0,488 | 0,487 | 0,502 | 0,503 | 0,518 | 0,525 | 0,522 | 0,524 | 0,525 |
| **Yaponiya** | 0,444 | 0,447 | 0,449 | 0,448 | 0,447 | 0,447 | 0,448 | 0,450 | 0,451 | 0,450 |
| **Yeni Zelandiya** | 0,292 | 0,292 | 0,293 | 0,289 | 0,290 | 0,288 | 0,285 | 0,283 | 0,281 | 0,278 |
| **Yunanıstan** | 0,664 | 0,687 | 0,696 | 0,675 | 0,672 | 0,680 | 0,666 | 0,651 | 0,658 | 0,659 |

Mənbə: Cədvəl [3] məlumatları əsasında müəllif tərəfindən hesablanıb.

PSL(D) sub-indeksin qiymətləndirilməsini daha aydın təhlil etmək üçün 2011-2020-ci illərdə dinamikasını nəzərdən keçirək.

**Qrafik 6.**

**PSL(D) sub-indeksinin 2011-2020-ci illərdə dəyişmə dinamikası**




Mənbə: Qrafik [3;4] məlumatları əsaısnda müəllif tərəfindən tərtib olunub.

Aparılan tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, PSL(D) sub-indeksinin üzrə 2011-2020-ci illərdə ölkələrin göstəricilərində baş verən dəyişikliklərə pensiya sistemində qanunvericilikdə qəbul olunmuş qərarlar və investisiyalara tətbiq olunan məhdudiyyətlər təsir göstərir. Dinamika əsasında görmək olar ki, ölkələr pensiya sistemini dövlət əvəzinə qeyri-dövlət əsasında maliyyələşdirilməyə üstünlük verməyə başlayıb. Bu sub-indeks ölkələrin pensiya sisteminə dövlət müdaxiləsinin səviyyəsini ölçməyə imkan verir. 2011-2020-ci illər ərzində ən çox liberallaşan ölkələr qrupuna Litva, Fransa, Macarıstan, Danimarka və Niderland, dirijist ölkələr qrupuna isə Meksika, Slovakiya, Çili, Polşa, Koreya, İspaniya və Türkiyə daxildir. PSL(D) sub-indeksinə görə Fransa 2011-ci ildə 0,728, 2020-ci ildə isə 0,645 nöqtəsində qərarlaşıb, yəni 0,084 fərq ilə bir qədər liberallaşmağa doğru gedib. 2017-ci ildən etibarən Fransa özəl pensiya fondlarının investisiyalaşmasına məhdudiyyətləri bir qədər yumşaltmışdır. Beləliklə,"özəl pensiya fondlarının investisiyalaşmasına qoyulan məhdudiyyətlər" alt-indeksi göstəricisi 2011-ci ildə 0,295-dən 2020-ci ildə 0,050-yə kimi azalmışdır. Bu isə Fransanın bir qədər sağa çəkmişdir. Buna baxmayaraq Fransa PSL(D) sub-indeksinə görə dirijist ölkələlər sırasındadır. PSL(D) sub-indeksinə görə Macarıstan 2011-ci ildə 0,609, 2020-ci ildə isə 0,514 nöqtəsində qərarlaşıb, yəni 0,095 fərq ilə öz mövqeyini liberallaşmağa doğru dəyişib. Macarıstan 2017-ci ildən etibarən işəgötürənlər üçün icbari sosial sığorta tarifləri 2020-ci illə müqayisədə 6,90 faiz bəndi azaldılıb. Belə ki, əgər 2011-ci

ildə işəgötürənlər üçün icbari sosial sığorta tarifi 22,20% idisə, 2017-ci ildə 19%, 2018-ci ildə 17,40%, 2018-ci ildə 17,40%, 2019-cu ildə 16,70% və nəhayət 2020-ci ildə 15,30% olmaqla tədricən azaldılıb. Bu da Macarıstanın ümumi sub-indeksin hesablanmasında 10 il ərzində bir qədər liberallaşmağına səbəb olub. Lakin buna baxmayaraq Macarıstan da dirijist ölkələr sırasındadır. PSL(D) sub-indeksinə görə Litvada 2011-2020-ci illər ərzində iki dəfə liberallaşma prosesi gedib. 2011-ci ildə Litva 0,303 idisə, 2020-ci ildə 0,151 olmuşdur. Bunun ən önəmli səbəbi işəgötürənlər üçün icbari sosial sığorta tariflərinin əhəmiyyətli dərəcədə azaldılmasıdır. Müvafiq olaraq həm "işəgötürənlər üçün icbari sosial sığorta tarifləri" alt-indeksinin, həm də PSL(D) sub-indeksinin azalmasına səbəb olub. Belə ki, 2011-ci ildə işəgötürənlər üçün icbari sosial sığorta tarifi 23,30% idisə, 2019-cu ildən 1,79% müəyyən olunmuşdur. 2011-2020-ci illər ərzində PSL(D) sub-indeksinə görə Litvanın pensiya sisteminin liberallıq səviyyəsi kəskin sürətdə artmışdır. Danimarka isə onsuz PSL(D) sub-indeksinə görə liberal ölkəyə sahib olsa da, 2011-2020-ci illərdə daha da liberal mövqe tutmuşdur. Belə ki, özəl pensiya fondlarının investisiyalaşmasına qoyulan məhdudiyyətlərin aradan qaldırılması Danimarkanı PSL(D) sub-indeksinə görə lider ölkə etmişdir. 2011-2020-ci illər ərzində özəl pensiya fondlarının aktivlərinin ÜDM-ə nisbətinin azalması, işəgötürənlər üçün sosial sığorta haqlarının və özəl pensiya fondlarının investisiyalaşmasına qoyulan məhdudiyyətlərin artırılması Polşada pensiya sisteminin dirijistlik səviyyəsi əhəmiyyətli dərəcədə artmışdır. Slovakiyada da işəgötürənlər üçün sosial sığorta haqlarının və özəl pensiya fondlarının investisiyalaşmasına qoyulan məhdudiyyətlərin artırılması, onun dirijistlik səviyyəsini artırmışdır. Meksikada bu illər ərzində dövlət pensiya xərclərinin və özəl pensiya fondlarının investisiyalaşmasına qoyulan məhdudiyyətlərin artırılması onun dirijistlik səviyyəsini kəskin sürətdə artırmışdır. Əgər 2011-ci ildə PSL(D) sub-indeksinə görə Meksika 0,382, 2014-cü ildə 0,409 və nəhayət 2020-ci ildə 0,606 nöqtəsi ilə liberallıq səviyyəsindən dirijistlik səviyyəsinə kəskin keçid etmişdir.

**Nəticə**

Beləliklə, aparılan araşdırma nəticəsində müəyyən olunmuşdur ki, dövlətin pensiya xərclərinin azaldılması, özəl pensiya fondlarının investisiyalaşmasına tətbiq olunan məhdudiyyətlərin aradan qaldırılması, işəgötürənlər üçün sosial sığorta tariflərinin azaldılması pensiya sisteminin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Bunu PSL(D) sub-indeksinin 2011-2020-ci illər ərzində dinamikasında, xüsusilə, Litva, Meksika, Danimarka, Fransa, Macarıstan və Polşanın timsalında aparılan araşdırma əsasında görə bildik. Azərbaycanda işəgötürənlər üçün yüksək sosial sığorta tarifinin və qeyri-dövlət pensiya fondlarının mövcud olmaması, PSL(D) sub-indeksinə görə ən dirijist mövqedə olmasına səbəb olmuşdur.

**Ədəbiyyat**

1. Abdullayeva R.S. Sosial təminat: liberal və dirijist iqtisadi sistemlərdə. Bakı, "Elm və Bilik", 2018.
2. İS(S)İ-2017: Dünya ölkələrinin iqtisadi modellər üzrə təsnifatı (Nazim Müzəffərlinin rəhbərliyi ilə ekspertlər qrupu). AMEA İqtisadiyyat İnstitutu, 2019 – səh. 59.
3. Pension at a Glance 2021 https://www.oecd-ilibrary.org/docserver/ca401ebd-en.pdf?expires=1658397604&id=id&accname=guest&checksum=98E41E67092488945ABF2A175A2
4. Pension Markets in Focus, 2021 https://www.oecd.org/daf/fin/private-pensions/Pension-Markets-in-Focus-2021.pdf
5. Taxing Wages, OECD 2020 https://read.oecd-ilibrary.org/taxation/taxing-wages/volume-/issue-_047072cd-en#page23
6. Survey Investment Regulation Pension Funds and other pension Providers, 2020 https://www.oecd.org/daf/fin/private-pensions/2021-Survey-Investment-Regulation-Pension-Funds-and-Other-Pension-Providers.pdf
7. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu https://e-qanun.az/framework/9367

***Вафа Ханлар кызы Гашимова***

**Межстрановой *сравнительный анализ измерения уровня либеральности пенсионных систем***

***Резюме***

*Основная цель исследования – провести межстрановой сравнительный анализ измерения уровня либеральности и дирижизма пенсионной системы. Для этого была проанализирована динамика субиндекса PSL(D) за 2011-2020 годы, включая 36 стран ОЭСР и Азербайджан. Методология исследования – использовались методы оценки и другие методы сравнительного анализа субиндекса PSL(D). Практическая значимость исследования - полученные результаты важны не только для Азербайджана, но и для стран ОЭСР. Оригинальность и научная новизна исследования - динамика, определяемая на основе измерений, во многом оригинальна. Результаты исследования - в результате исследования установлено, что снижение государственных пенсионных расходов, устранение ограничений на инвестирование частных пенсионных фондов, снижение ставок социального страхования для работодателей оказывают существенное влияние на развитие пенсионной системы.*

***Ключевые слова:*** *пенсионная система, либерализм, дирижизм, государственные пенсионные расходы, частные пенсионные фонды, работодатель, ВВП.*

***Vafa Khanlar Hashimova***

***Cross-country comparative analysis of measuring the level of liberality of pension systems***

***Summary***

*The main purpose of the study is to conduct a cross-country comparative analysis of measuring the level of liberalizm and dirijism of the pension system. For this purpose, the dynamics of the PSL(D) sub-index was analyzed during 2011-2020, including 36 OECD countries and Azerbaijan. Methodology of the study – assessment methods and other methods of comparative analysis of the PSL(D) sub-index were used. The practical importance of a research – the results obtained are important not only for Azerbaijan, but also for the OECD countries. The originality and scientific novelty of the study - the dynamics, determined on the basis of measurements, is largely original. The results of the study – As a result of the research, it was determined that the reduction of the state's pension expenses, the elimination of restrictions on the investment of private pension funds, and the reduction of social insurance rates for employers have a significant impact on the development of the pension system.*

***Key words:*** *pension system, liberalizm, dirijism, public pension expenditure, private pension funds, employer, GDP*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 27.06.2022.***
***Çapa qəbul olunub: 01.07.2022.***